# Plastik kartlardan istifadə haqqında təhlükəsizlik qaydaları

## Kartı təhvil alarkən:

- PİN-kod olan zərfi alarkən, mütləq onda açılma izlərinin olub-olmamasını yoxlayın.
- Kartınızın PİN-kodunu, CVV-kodunu, 3D-Secure şifrəsini heç kimə bildirməyin. Bu kartınızın itirilməsi və ya oğurlanması zamanı hesabınızda olan pul vəsaitinin ikinci şəxs tərəfindən istifadəsinin qarşısını ala bilər.
- Heç vaxt PİN-kodunuzu kartın üzərində yazmayın.

## Alış-veriş edərkən və ya xidmətlərdən yararlanarkən:

- Kartınızı yad insanlara (mağazada ödəniş zamanı kassirə,restoranda ödəniş zamanı ofisianta və s.) verməyin.
- Həmişə alış-verişi həyata keçirdikdən sonra qəbzi 33 gün ərzində saxlayın.
- Hər ay əməliyyatlarınızı hesabdan çıxarışlar ilə yoxlayın. Avtorizasiya edilməmiş istənilən əməliyyat barədə banka məlumat verin.

## Online ödənişlər aparаrkən:

- Ödəniş etdiyiniz səhifələrin təhlükəsiz veb səhifələr olduğuna əmin olun. Şübhə yarandığı halda kartın rekvizitlərini daxil etməyin.

- İnternet vasitəsilə və ya telefonla mal və xidmətlərin sifarişi zamanı PİN-kod tələb olunmur.
- Kartınızın informasiyasını şübhəli veb səhifələrdə yaddaşda saxlamayın.

**Bankomatdan və ya POS-terminaldan istifadə etdikdə:**



- Mühafizə olunan və yaxşı işıqlandırılmış yerlərdə quraşdırılan bankomatlardan istifadə etməyə çalışın!
- Şübhəli qurğularda kartdan istifadə etməyin.
- PİN-kodun daxil edilməsi ilə aparılan əməliyyatlar zaman kənar şəslərin PİN kodunuzu görmədiyindən əmin olun.
- Tanımadığınız şəxslərdən kartdan vəsait çəkmək və ya bankomatda digər əməliyyatları həyata keçirmək üçün yardım istəməyin.

**Əlavə təhlükəsizlik təbirləri:**



- Siz kartınız ilə istənilən qanunsuz əməliyyatlar barədə vaxtında xəbərdar olmaq üçün  İnternet-bankinq,mobil bankinq və SMS-bildiriş xidmətinə qoşula bilərsiniz.
- Kartınız itdikdə dərhal bankın məlumat mərkəz-inə,Azerikardın məlumat mərkəzinə zəng edib kartınız bloklaşdırın. O cümlədən, mobil tətbiq vasitəsilə də kartınızın statusunu dəyişə bilərsiniz.
- Yüksək risk səviyyəsi olan ölkələrdə (Asiya və Sakit okean regionu: Çin, Hindistan, Yaponiya və Tailand; Cənubi və Mərkəzi Amerika: Kuba, Meksika, Braziliya, Argentina, Peru, Çili, Venesuela; Yaxın Şərq: İraq, İran, Suriya, İsrail; Avropa: Albaniya, Andorra, Ukrayna; Afrika) ödəniş kartın-dan istifadə etməməyə çalışın.